# Böyük qayıdışın təntənəsi



"Biz əlimizdən gələni edirik ki, keçmiş məcburi köçkünlər üçün ən yaxşı şərait yaradılsın. Onlar buna layiqdirlər, çünki onlar 30 il ərzində çətin şəraitdə yaşayıblar". Prezident İlham Əliyevin dekabrın 6-da keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda səsləndirdiyi bu fikirlər hər ötən gün öz təsdiqini tapır.

## Keçmiş məcburi köçkünlər əzəli yurd yerlərinə qayıdırlar

Torpaqlarını otuz illik işğaldan azad edərək tarixinin yeni mərhələsinə qədəm qoyan Azərbaycanda keçmiş məcburi köçkünlər Prezident, Ali Baş Komandan İlham Əliyevin hərbi-siyasi uğurları nəticəsində dədə-baba yurdlarına qovuşur, Vətən nisgilinə son qoyurlar. Onların rahat və təhlükəsiz yaşayışı üçün Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm bərpa-quruculuq işləri aparılır, təhlükəsizlik problemləri həll edilir, ərazilər minalardan təmizlənir, iqtisadiyyatın bərpası, müvafiq infrastrukturların qurulması və yeni iş yerlərinin yaradılması istiqamətində çoxsaylı işlər görülür. Bütün bunlar yalnız bir məqsədə - işğaldan azad edilmiş ərazilərimizin yenidən çiçəklənməsinə və keçmiş məcburi köçkünlərin öz yurdlarına qovuşmasına xidmət edir.

Böyük qayıdışın ilk addımı ötən il iyulun 19-da gerçəkləşdi. Həmin gün Zəngilan rayonunun Ağalı kənd sakinləri üç onillik həsrətdən sonra əzəli torpaqlarına qayıtdılar. Zəngilanın "ağıllı kənd" konsepsiyası əsasında qurulmuş Ağalı kəndi sakinlərin ixtiyarına verildi. Kəndə bu mərhələdə 41 ailə köçürüldü.

Ağalı ilk köç yurdu olmasından əlavə, daha bir məqamla tarixə yazıldı. 30 il sonra Şərqi Zəngəzurun ilk körpəsi məhz Ağalıda dünyaya gəldi.

2023-cü ilin mart ayında - Novruz bayramı ərəfəsində Tərtərin Talış kəndinə köç başladı.

Bu il mayın 28-də - Müstəqillik Günündə Laçın şəhərinə ilk köç baş tutdu.

Avqustun 18-də isə Füzuli şəhərinə qayıdış başladı.

Bir neçə aydır Laçının Zabux kəndində də həyat öz axarına dönüb.

Beləliklə, Böyük qayıdış çərçivəsində ağalılılar, füzulililər, laçınlılar və talışlılar mərhələli olaraq əzəli torpaqlarına dönüblər. Bu günədək 175 ailə (871 nəfər) Ağalıya, 20 ailə (90 nəfər) Talışa, 383 ailə (1475 nəfər) Laçın şəhərinə, 380 ailə (1392 nəfər) Füzuli şəhərinə, 176 ailə (688 nəfər) Laçının Zabux kəndinə köçüb. Ümumilikdə 1134 ailə (4516 nəfər) keçmiş məcburi köçkün doğma yurduna dönüb.







Gələn ildən isə cəbrayıllıların doğma yurdlarına köçürülməsi işlərinə başlanılacaq.

Bir zamanlar yurdlarına qayıtmağı həsrətlə gözləyən keçmiş məcburi köçkünlərin arzuları reallaşmağa başlayıb. Qarabağ və Şərqi Zəngəzura qayıdan insanların sayı günügündən artır. Hər həftə, hər ay onlarla ailə yurduna qovuşur. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq.

## Azad olunmuş torpaqlarımız sürətlə dirçəlir

Mənfur düşmənin viran qoyduğu torpaqlarımız dövlətimizin məqsədyönlü addımları nəticəsində dirçəlməyə başlayıb. Şəhərlər, kəndlər yenidən insanların yaşaya biləcəyi yuvalara çevrilir. Azadlığına qovuşmuş torpaqlarımızda yeni məktəblər, xəstəxanalar, yollar, hava limanları tikilir. Böyük qayıdış proqramı çərçivəsində 2026-cı ilə qədər ümumilikdə 100 yaşayış məntəqəsinin bərpa olunması nəzərdə tutulur. Yenidən qurulan yollarla Böyük qayıdış sürətlə, rahat şəkildə həyata keçirilir.



Yurdlarına qovuşan ailələrin işlə təminatı da önəmli məqamlardan biridir. Bunu daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev qeyd edir ki, əsas məsələ keçmiş məcburi köçkünlər üçün yaxşı şərait və iş yerləri yaratmaqdır: "Yeri gəlmişkən onu da deyim ki, iş yerlərinin yaradılması da vacib sahələrdəndir və biz qayıdış prosesini planlaşdırarkən diqqətimizi buna yönəldirik. Beləliklə, geri qayıdan insanların əksəriyyəti artıq işlə təmin edilib və bu bir daha onu nümayiş etdirir ki, bizim yanaşmamız hərtərəflidir".

Böyük qayıdış nəzərdə tutulandan da qısa zamanda yekunlaşacaq. Zəfərdən dərhal sonra başladılan bərpa-quruculuq işləri sürətlə davam edir. Azərbaycanın bütün bu işləri öz gücü hesabına görməsi isə ayrıca bir qürurverici məqamdır. Bəlkə də, 10-20 il öncə heç kəsin ağlına gəlməzdi ki, ölkəmiz bu qədər güclənəcək, regionun ən qüdrətli dövlətlərindən biri olacaq, tarixinin ən şərəfli dönəmini yaşayacaq. Amma biz bu xülyanı gerçəkləşdirdik... Ali Baş Komandanımız və qüdrətli ordumuz sayəsində... Var ol, Vətən!

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***